**AZƏRBAYCAN RESPUBLİKASININ**
**MƏRKƏZİ BANKI**

AZ1014, Bakı şəhəri, R. Behbudov küç., 32
Tel.: 493 11 22, faks: 493 55 41
E-mail: mail@cbar.az

"30" aprel 2012 il
№ 11/03-1161

**Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün bankların rəhbərlərinə**

Azərbaycan Respublikasının Mərkəzi Bankı öz mandatına uyğun olaraq, bankların istifadə etdikləri ödəniş sistemlərinin etibarlılığının və təhlükəsizliyinin, habelə bank informasiyasının mühafizəsinin təmin edilməsini prioritet sahələrdən biri hesab edir.

Ölkədə ödəniş kartları bazarının genişləndiyi bir şəraitdə kart sahiblərinin nağdsız ödəniş alətlərinə inamının və etibarının artırılması məqsədilə bankomat, POS-terminal vasitəsilə və internet üzərindən aparılan əməliyyatların təhlükəsizliyinin gücləndirilməsi və fırıldaqçılığın qarşısının alınması kimi məsələlərin aktuallığı Mərkəzi Bank və banklar tərəfindən adekvat tədbirlərin görülməsini zəruri edir.

Eyni zamanda banklar arasında aparılmış sorğunun nəticələri və son illərdə ödəniş kartları ilə fırıldaqçılıq hallarının artması göstərir ki, kart sahibləri haqqında məlumatların qorunmasına, bankomatlara monitorinqin və video-müşahidələrin təşkilinə, habelə bu sahədə mübarizə tədbirlərinin gücləndirilməsinə ehtiyac vardır.

Bununla əlaqədar Mərkəzi Bank tərəfindən beynəlxalq təcrübəyə uyğun olaraq "Ödəniş kartları ilə fırıldaqçılıq əməliyyatlarının qarşısının alınması üzrə Tövsiyələr" işlənib hazırlanmışdır.

Həmin sənədi işdə rəhbər tutmaq üçün Sizə təqdim edirik.

***Qoşma:*** *"Ödəniş kartları ilə fırıldaqçılıq əməliyyatlarının qarşısının alınması üzrə Tövsiyələr" – 1 nüsxə, 3 vərəq.*

**Hörmətlə,**

**Sədrin birinci müavini** **A. Quliyev**